

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 30-31 (7435-7436) * 1933-cü ildən nəşr olunur * Şənbə, 24 iyun 2017-ci il. * Qiyməti 40 qəpik




# Milli-mənəvi dəyərlərin və multikulturalizmin hamisi

Azərbaycan xalqı nəinki regionda hətta bütün dünyada öz milli mənəvi dəyərlərinə sadiq olmaqla bərabər multikultural dəyərlərə də böyük önəm verən xalq kimi tanınır. Azərbaycanda islam dini ilə birlikdə mövcud olan bütün dinlərə hörmət və ehtiramla yanaşılır. Heç bir dini ayrıseçkilik barədə söhbət belə gedə bilməz. Bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur və bu gün ölkə başçısı möhtərəm cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Möhtərəm Prezidentimizin multikultural dəyərləri təşviq və islami həmrəyliyə dəvət edən ideyaları bütün dünyada rəğbətlə qarşılanır. Dövlət başçımızın 2016-cı il i«Multikulturalizm ili», bu ili isə «İslam həmrəyliyi ili» elan etməsi həm islami həm də bəşəri dəyərlərə böyük xidmətidir. Cənab İlham Əliyevin islami dəyərlərə verdiyi qiymət, islam dininə mənsub insanlar və dövlətlər arasında həmrəylik, dostluq yaratmaq təşəbbüsləri islam aləmində ona böyük nüfuz qazandırmışdır. Təsadüfi deyil ki, ərazisi və əhalisi ölkəmizdən qat-qat böyük olan dövlətlərin siyasət adamları da İslam həmrəyliyi və tolerantlıq sahəsində Azərbaycanın unikal təcrübəsinə müraciət edirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə milli-mənəvi dəyərlərlə tolerantlığın vəhdətinin, cəmiyyətin sabitliyinin, təhlükəsizliyinin əsas amillərindən biri olduğunu və bu prinsiplərə daim sadiq qalacağını belə ifadə etmişdir:

«Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulubdur. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir. Yəni bizim çox möhkəm təməlimiz var. Bu bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür... Bununla bərabər, Azərbaycan dünyəvi, müasir dünyaya açıq olan dövlətdir... Öz xalqına, dininə hörmət başqa dinə, xalqa olan hörmətdən başlayır. Budur, bizim siyasətimiz və bu siyasət Azərbaycan cəmiyyəti tərəfindən tam bəyənilir və dəstəklənir».

# Birgə konfrans keçirilib

İyunun 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, DQİDK-nın sədri Mübariz Qurbanlı, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazisi Ceyhun Rüstəmov, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, eləcə də hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, dini icma sədrləri, din xadimləri, həmçinin ictimaiyyət nümayəndələri iştirak ediblər.



Qəbələ Mədəniyyət Mərkəzində keçirilən konfransı giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq, bu gün müstəqil Azərbaycanda mövcüd olan mükəmməl multikulturalizm prinsiplərinin, milli-mənəvi dəyərlərin və mədəniyyətlərin sistemli inkişafının əyani nümunəsini rayonumuzun timsalında görməyin mümkün olduğunu qeyd etmişdir. O, ölkəmizdəki milli-etnik zənginliyin ən mükəmməl təcəssümlərindən biri kimi Qəbələdə əsrlər boyu müxtəlif xalqların mehriban, sülh və qarşılıqlı etimad şəraitində yaşadığını bildirmişdir.

Səbuhi Abdullayev ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyasının təməl prinsiplərindən olan multikulturalizm və tolerantlığın əslində Azərbaycan xalqının həyat tərzi olduğunu vurğulayaraq, ulu öndərin bu mənəvi dəyərlərimizin yaşadılması üçün böyük fədakarlıqlar göstərdiyini, ölkəmizdəki bütün xalqları vahid bayraq, vahid milli mənafelər, vahid hədəflər ətrafında sıx birləşdirdiyini və bu prosesin möhtərəm Prezidentitmiz cənab İlham Əliyev tərəfindən yaradıcılıqla daha da inkişaf etdirildiyini diqqətə çatdırmışdır.





Konfransda DQİDK-nın sədri Mübariz Qurbanlı ölkə başçısı cənab İlham Əliyevin sərəncamına əsasən 2017-ci ilin "İslam Həm-



rəyliyi İli" elan edilməsi, bunun İslam dininin maddi və qeyri-maddi irsinin formalaşması istiqamətində rolu, dünyada həmrəyliyin təmin olunmasında əhəmiyyəti, ölkəmizdə birgəyaşayış siyasətinin daha dərindən mənimsənilməsi məsələlərinə dair məruzə edib.

Mövzu ilə əlaqədar Respublika Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazisi Ceyhun Rüstəmov, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili mövzu ətrafında çıxış edərək Azərbaycanda dövlət-din münasibətlərinin sağlam təməl üzərində formalaşdığını və inkişaf etdiyini bildiriblər. Qeyd olunub ki, milli-mənəvi dəyərlərin inkişafına dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Həmçinin Azərbaycan multikulturalizminə olan maraq respublikamızın dünyada tarixi örnək dəyərlərə malik bir ölkə kimi tanıdılmasının nəticəsidir. Azərbaycanda 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsinin təqdirəlayiq olduğunu vurğulayan natiqlər bu addımların Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirən amillər olduğunu söyləyiblər.

**✍ Varis YAQUBOV,**
**Fotolar İlkin Vəlizadənindir.**
**"Qəbələ"**